# QARA QARAYEV. CAZ VƏ BAS ORKESTRİ ÜÇÜN 3 NOKTÜRN

**Fidan Nəsirova**
Ü.Hacıbəyli adına BMA-nın "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi: Orqanologiya və Akustika" elmi laboratoriyasının elmi işçisi, doktorant
**E-mail:** fidan.nasirli@mail.ru



Azərbaycan və onun zəngin, rəngarəng musiqisi uzun əsrlərdən bəri istər ölkəmizdə, istərsə də Yaxın və Orta Şərqdə məşhur olmuş, hörmət və rəğbət qazanmışdır. Qeyd etmək lazımdır ki, əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş klassik musiqimiz bir yerdə, bir nöqtədə donub qalmadı, bəlkə də bütün respublikalar içərisində daha çox inkişaf etdi, mühüm rol oynadı, hətta aparıcı mövqe tutdu. Beləliklə, Azərbaycan musiqisinin ənənələri artdı, möhkəmləndi. Yeni çoxjanrlı, çoxsahəli musiqi məktəbinin yaranmasında Ü.Hacıbəyli, M.Maqomayev, A.Zeynallı, Z.Hacıbəyov, S.Rüstəmov, Ə.Bədəlbəyli, C.Hacıbəyov. T.Quliyev, Niyazi kimi professional sənətkarların çox böyük xidmətləri olub, sonradan isə Q.Qarayev, C.Hacıyev, R.Hacıyev, F.Əmirov, Ə.Abbasov kimi bəstəkarlar öz sələflərinin yolunu inamla davam etdirərək, sənəti yeni-yeni formalar, ifadə vasitələri ilə zənginləşdiriblər.

Çox zəngin, rəngarəng Azərbaycan musiqisinin tarixində xüsusi yer tutan caz musiqisi həmişə aktual janr kimi inkişafda olmuş, bəstəkarlarımızın yaradıcılığında xüsusi yer tutmuşdur. Bu janra müraciət edərək gözəl sənət inciləri yaradanlar arasında görkəmli bəstəkarımız Qara Qarayevin adı xüsusi çəkilir.

Əvvəldə qeyd etdiyimiz kimi, xalq musiqimizi dərindən bilən və milli klassik ənənələrimizə sadiq qalan Qara Qarayev yaradıcılığının müəyyən mərhələlərində XX əsrin texniki üsullarına böyük maraq göstərib və yeni tipli əsərləri ilə Azərbaycan professional musiqisinin bu yolla inkişafını, XX əsrin yeni bəstəkarlıq sistemlərinin musiqimizi daha da canlandıra biləcəyini təsdiqləyib. Həmin yeniliklərdən biri də caz musiqisinə sevgisi idi və təsadüfi deyil ki, bu janrın xüsusiyyətlərindən bəzi əsərlərində məharətlə istifadə etmişdir. Belə vokal əsərləri içərisində bas və caz orkestrin müşayiəti üçün yazılmış 3 Noktürn əsəri böyük maraq doğurur ("Noktürn" fransızca "axşam mahnısı" deməkdir). Əsası Con Fild tərəfindən qoyulmuş noktürnlər dərin lirika, ehtiraslı, dramatizm ilə seçilirlər. Bəstəkar bu əsəri 1958-ci ildə "İldırımlı yollarla" baletindən sonra yazmışdır. Amerikanın görkəmli ictimai xadimi, sülh və demokratiya uğrunda aktiv mübarizə aparan L.Xyuzun yaradıcılığına müraciət etmişdir. Bu vokal silsilədə zəncilərin ağır, çətin və əzablı həyatı əks olunur. Bu, bir növ trilogiyadır. Belə ki, hər nöktürn zənci qəhrəmanının həyatı, psixoloji durumu ilə bağlı olub onun portretini yaradır və qəhrəmanın öz dilindən nəql edilir. Belə ki, ədibin sözlərini şüar kimi nəzərdə tutub: Amerika hamı üçün - ağlar və qaralar üçün... Q.Qarayevin 3 noktürnü zənci xalqına bəslədiyi dərin rəğbətin ifadəsi idi ki, yazdığı "İldırımlı yollarla" baletində öz əksini tapmışdır. Ancaq noktürndə baletə məxsus qəhrəmanlıq, romantik pafos yoxdur. Bu əsərdə öz çiyinlərində ağır, çətin ehtiyacın və irqi ayrı-seçkiliyin yükünü gəzdirən "kiçik adam" mövzusu qaldırılıb. Nöktürndə bəstəkar zənci musiqi folklorunun melodik intonasiya xüsusiyyətləri ilə yanaşı, doğma Azərbaycan musiqisinin ladlarından da istifadə etmişdir. Noktürn 3 romansdan ibarətdir: "Yorğun", "Yay gecəsi", "Mulat".

I vokal miniatür "Yorğun" bluz adlanır. Andante tempindədir. Burada gənc zənci öz acınacaqlı taleyinə etiraz edir. O, yoxsuldur, səhərdən-axşama kimi işləyir, çalışır. Mahnı dramatik xarakter daşıyır.

"Yay gecəsi" adlı romans isə reqtaym üslubundadır. II mahnı temp və xarakter baxımından əvvəlkindən fərqlidir. Moderato tempində, səmimi, lirik xarakterli olub, ılıq yay gecəsini təsvir edir. Lakin qəhrəmanın qəlbi yenə boşdur və bu ona əzab verir. Tənhalıq – nöktürndə aparıcı xətlə keçir. Burada Harlemin sakit, həzin, ulduzlu gecəsi təsvir olunur.

"Mulat" adlı romansında blyuzu xatırladan təzadlı hisslərdə insan ləyaqəti ilə ictimai həyat arasında ziddiyyətlilik özünü büruzə verir. Mahnının qəhrəmanının anası zənci, atası isə ağ dərilidir. Qəhrəman öz taleyinə acıyır. Bu miniatür faciəvi məzmun daşıyır, I mahnı kimi Andante tempindədir.

Bildiyimiz kimi, romantik musiqidə "noktürn" birhissəli lirik pyes mənası daşıyır. Musiqi tarixində noktürnün vokal nümunələri isə birhissəli olub, bir və ya bir neçə səs üçün və adətən müşayiətsiz nəzərdə tutulurdu. Məsələn, V.A.Mosart, C.Verdi, C.Rossini belə vokal noktürnlər bəstələmişlər. Qara Qarayevin öz əsərini noktürn adlandırması vokal miniatürlərdəki tutqun boyalar və hisslərlə bağlıdır.

Obrazların subyektiv rəngarəngliyi ilə əlaqədar hər bir noktürnlər özünün janr xüsusiyyətlərinə görə mahnıdan çox ariozo-monoloqa yaxındır. Bundan başqa noktürnlərin musiqisi kollektiv zənci musiqi yaradıcılığının elementləri ilə bağlıdır. Biz burada spiriçuels üslubunda ehtiraslı, melodik dönmələr, kölə halında olan xalqın içində gözəl həyatı təbliğ edən mahnı kimi yaranmış məğrur himnlərə rast gəlirik. Q.Qarayevin musiqisində zəncilərin mərasim ağılarının həyəcanlı trioları ("Mulat"), kollektiv fəhlə mahnılarının ritmləri ("Yorğun" noktürnün nəqəratı) hiss olunur. Bütün bunlar noktürn qəhrəmanlarının faciəsini, xalqının hər gün, hər an çəkdiklərini ifadə edir. Nahaq yerə noktürn qəhrəmanı öz təkliyini və kədərini gecə şəhərinin "nəhəng və xəstə boşluğu" ("Yay gecəsi") və bütün dünyanın aramsız yorğunluğuna bənzətmir.

I miniatür "Yorğun" (bluz) adlanır (Andante – g-moll). Bluz vokal musiqinin bir növüdür və onun öz ladı olur. Natural majorda III, V və VII pillələr bəmləşir. Adətən bluzun ilk 4 xanəsi tonika, sonrakı iki-iki Subdominanta və Tonika, nəhayət, yenə iki qoşa xanələr – Dominanta və Tonika üzərində qurulur. Əsasən 4\4 ölçüdə olur, mənşəcə Afrika-Amerika musiqisindən gəlir. Poeziyada bluz istiqaməti L.Hyuzun adı ilə bağlıdır. "Yorğun" bluz – 11 xanəli instrumental girişlə açılır. Onun formasını – koda ilə verilən ikhissəli forma kimi müəyyən etmək olar: A- I hissə ("Дома у нас нето")

**Nümunə 1**

B – II hissə ("Полюбилась девчоночка")




**Nümunə 2**

Nəhayət – Koda – sonda 7 xanəli sonluq verilir.

Vokal partiya ritmik baxımdan sərbəstdir, reçitativ-deklamasiya xüsusiyyətləri daşıyır. Lad baxımından burada daha çox dorik lad üstünlük təşkil edir. Eyni zamanda pentatonika və bluz ladının elementləri də nəzərə çarpır. Bluz üçün səciyyəvi harmoniyalar – dorik Subdominanta, S9 nəzərə çarpır.




**Nümunə 3**

Ümumiyyətlə, burada həm də kuplet forması xüsusiyyətləri (3 kuplet) verilir. Hər kupletin əvvəlində instrumental giriş səslənir.

II mahnıda - "Yay gecəsi" (Moderato F-dur-D-dur) – diqqət çəkən məqam ölçünün dəyişməsidir (2\4, 4\4). I mahnıda olduğu kimi, burada da iki hissəli forma – koda ilə verilir. Kiçik giriş – I hissə




**Nümunə 4**

II hissə (d-moll)




**Nümunə 5**

Koda ("А я все мечусь")




**Nümunə 6**

Burada ən çox D9, D11. harmoniyalar ("Мечусь в темноте") istifadə edilmişdir. Lad əsasını bluz və pentatonika ladı təşkil edir.

Silsilənin son mahnısı "Mulat" (Andante c-moll) sadə üçhissəli formadadır: A+B+A.

I bölmə iki cümlədən ibarət period formasındadır,




**Nümunə 7**

Periodun 1-ci cümləsi sual, ikincisi – cavab xarakteri daşıyır, orta bölmə “и если я”



**Nümunə 8**

Burada dorik lad tətbiq edilir.

Repriza c-moll bu statik reprizadır, 1-ci bölməni təkrarlayır.

N3. Мулат




**Nümunə 9**

Ümumiyyətlə, “Üç noktürn”ün orijinallığı onun harmonik dilində - ikiqat alterasiyalı akkordlar, nonakkord və undesimakkordlar, köməkçi tonlu müxtəlif akkordlarda qabarıq şəkildə verilməsindədir.

Qara Qarayev romanslarının xüsusiyyətini belə təyin etmək yerinə düşərdi: yüngül janrda yazılmış ciddi musiqi. Bir daha təsdiq olunur ki, estrada musiqisi təkcə şən, oynaq, yaxud melanxolik və gümrah yox, həmçinin ən incə psixoloji və əsl dramatizm ifadə edə bilər. ❖




**Ədəbiyyat:**

1. Абасова Э.А. К вопросу национального своеобразия тематизма К.Караева / К.Караев. Статьи. Письма. Высказывания. - М., «Сов.композитор», 1978
2. Абезгауз И.В. О гармоническом языке Кара Караева / Музыка и современность. Сб.статей, вып. 5. - М., «Сов.композитор», 1967
3. Караев К.А. Научно-публицистическое наследие. – Б., «Элм», 1988
4. Qara Qarayev. Caz və bas orkestri üçün 3 Noktürn. Klavir.

**Резюме**

Фидан Насирова

КАРА КАРАЕВ. 3 НОКТЮРНА ДЛЯ ДЖАЗ И БАС ОРКЕСТРА

В предлагаемой статье анализируются «3 Ноктюрна» для джаз и бас оркестра выдающегося представителя азербайджанской композиторской школы Кара Караева. «Ноктюрны» созданы им в 1958 году. В них композитор обращается к творчеству известного американского общественного деятеля, активного борца за мир и демократию Л.Хьюза. В качестве яркого эпиграфа автор приводит его слова: Америка для всех - и белых и черных....

**Ключевые слова:** Композитор, Кара Караев, Ноктюрн, Америка, общественный деятель, Л.Хьюз, джаз, бас, оркестр

**Summary**

Fidan Nasirova

QARA QARAYEV. 3. NOCTURNS FOR JAZZ AND BASS ORCHESTRA

In presenting article 3 nocturns are realizing written for jazz and bass orchestra by Q.Qarayev famous representative Azerbaijanian composer school. He wrote these 3 nocturns in 1958. The composer addressed to the creation of American social author L.Chyus who was actively fighting for peace and democracy. So he meant the author’s words as a slogan: America is for everyone, for the Whites and for the Blacks (negroes)...

**Key words:** Composer, Q.Qarayev, nocturn, America, social author, L.Chyus, jazz, bass, orchestra